# HƏDİSLƏRİN *mötəbərliyi*

## MEYARLARIN YENİDƏN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ




BİFİ Müxtəsər kitablar seriyası

# HƏDİSLƏRİN MÖTƏBƏRLİYİ

## MEYARLARIN YENİDƏN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

**İsrar Əhməd Xan**

Beynəlxalq İslam Fikri İnstitutu

"İdrak" İctimai Birliyi

**Hədislərin mötəbərliyi:**
**meyarların yenidən müəyyənləşdirilməsi (Azeri)**
*İsrar Əhməd Xan*
*BİFİ Müxtəsər kitablar seriyası*

© "İdrak" İctimai Birliyi
və Beynəlxalq İslam Fikri İnstitutu
1443 (hicri) / 2022 (miladi)
*Paperback* ISBN: 978-9952-8445-5-9

**Authentication of Hadith: Redefining the Criteria (Azeri)**
*Israr Ahmad Khan*
*IIIT Books-in-Brief Series*

© The International Institute of Islamic Thought (IIIT)
1433AH / 2012CE
*Paperback* ISBN: 978-1-56564-590-5
IIIT
P.O. Box 669
Herndon, VA 20172, USA
www.iiit.org

Tərcüməçi: Kəmalə Musayeva
Redaktor: Ülkər Abdullayeva
Bədii və texniki tərtibat: Həsən Həsənov
"İdrak" İctimai Birliyi
Azərbaycan, Bakı ş., Mirəli Seyidov 3138,
korpus D, 1-ci mərtəbə
idrak.org.az

Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
icazəsi ilə nəşr olunur (DK-211/Q, 25 fevral 2022-ci il)

Bütün hüquqlar qorunur.

## Beynəlxalq İslam Fikri İnstitutu (BİFİ)
## Müxtəsər kitablar seriyası

**Beynəlxalq İslam Fikri İnstitutunun müxtəsər kitablar seriyası oxucularda əsərlərin orijinallarının məzmunu haqqında təsəvvür yaratmaq məqsədilə insititutun icmal formasında yazılmış əsas nəşrlərinin toplusudur. Qısa, oxunaqlı və vaxta qənaət edilməsi baxımından faydalı olan bu icmallar əsas mətnin təfərrüatlı və dəqiq yazılmış ixtisarıdır. İcmalların oxucularda həmin əsərlərə maraq oyadacağına ümid edirik.**

İsrar Əhməd Xanın "Hədislərin mötəbərliyi: meyarların yenidən müəyyənləşdirilməsi" adlı əsəri tam şəkildə 2010-cu ildə nəşr edilmişdir. Müəllif əsərdə hədislərin səhihliyi kimi həssas mövzuya toxunmuş, əsas hədis toplularının tərtibçiləri tərəfindən qəbul edilmiş meyarlara diqqət yetirmişdir. Onun fikrincə, digər hədislərin tənqidinə yönəlmiş, Peyğəmbərə aid olmayan rəvayətləri və Quran təliminə zidd olan məsələləri əks etdirən bəzi hədislərin də həmin toplulara daxil edilməsinin səbəbi diqqətin hədislərin məzmununa deyil, onları bir-birinə ötürən ravilər zəncirinin davamlılığı və dəqiqliyinə yetirilməsi olmuşdur. Müəllif Peyğəmbərin vəfatından sonra yayılan hədislərin bir qismində məqsədyönlü saxtakarlığın mövcudluğu faktına məhəl qoyulmamasını ağılsızlıq hesab edir. Onun fikrincə, bu saxtakarlıqlar imanın əsaslarını zəiflətmək məqsədi daşıyır və buna nail olmaq üçün məzhəb, siyasi, iqtisadi və hətta teoloji vasitələrdən istifadə edilirdi. Yeni yaranan dinə qarşı rəqabətdən irəli gələn siyasi və dini ziddiyyətlər hədislərdən istifadə vasitəsilə İslam barəsində dezinformasiyanın yayılmasına səbəb olurdu.

Hədislərin düzgün şərh edilməməsi və onlardan sui-istifadə edilməsi yenilik olmasa da, bu gün saxta hədislərdən istifadə mürəkkəb və dəyişkən dünyada ekstremist davranışları qanuniləşdirmək, açıq-aşkar təcavüzə, xüsusilə qadınlara qarşı zorakılığa haqq qazandırmaq və zorakı davranışlara çağıran fitvalar vermək üçün asan və təhlükəli nəticələr doğuran üsuldur. Bundan əlavə, müasir dövrdə İslam əleyhinə əhval-ruhiyyənin yayıldığını nəzərə alsaq, islam zorakılığı və cahilliyi ideyasına təkan vermək məqsədilə ictimailəşdirilmiş və amansızcasına istifadə edilən uydurma hədislər məsələsinə toxunmaq vacibdir. Hazırda İslam elmlərinə dərindən bələd olan müsəlman alimlərinin əsas vəzifəsi yanlış təfsirlərə yol açan, Qurana və Peyğəmbərə xəyanət edərək nadanlıq yolunu davam etdirən uydurma hədislərin kökünü kəsməkdir.

# GİRİŞ

Quran və hədis islam etiqad sisteminin bütün cəhətlərini və onların insan həyatında təzahürünü tənzimləyir. Quran Allahın (c.c.) nazil etdiyi hökmləri, hədislər isə Quranın əmrləri və təlimatının əməli və metodoloji tətbiq meyarlarını əks etdirir. Allah Məhəmməd peyğəmbərə Quranda vəhy olunanları insanlara çatdırmağı, müqəddəs kitabın bəyan etdiyi həqiqəti açıqlamaq və ardıcıllarına öyrətməyi tapşırmışdır. Quranın *bəyanı* hədis və Sünnədir.

Quranda aşağıdakı məqamlar doğru hesab olunur və bəyan edilir: Allahın bərəkəti Ona və Peyğəmbərinə itaət edənlərin üzərində olacaqdır[1]; itaət vacibdir[2] və qəsdən laqeydlik ciddi günahdır[3]; Peyğəmbər bütün mübahisəli məsələlərdə hakim rolunu oynayır[4]; Allahın və Peyğəmbərin göstərişlərinə riayət edilməməsi və məhəl qoyulmaması həyatda uğursuzluğa[5] və insanın əməllərinin əhəmiyyətini itirməsinə səbəb olur[6].

Müasir dövrdə müsəlmanlar hədislərə münasibət baxımından dörd kateqoriyaya bölünürlər: onun müsəlman həyatında əhəmiyyətini qəbul etməyənlər; səhihliyinə diqqət yetirmədən bütün hədisləri kor-koranə qəbul edənlər; əməli məqsədlər üçün araşdırmadan, təsadüfi hədisləri seçənlər; Peyğəmbər hədislərinin müqəddəsliyinə inanan, lakin islam həyatı və sivilizasiyası üçün məntiqi və təcrübi əhəmiyyəti baxımından onlara ehtiyatla yanaşanlar.

Müasir dövrdə müsəlmanlar Peyğəmbərin qədim ənənələrinə bağlılıqdan deyil, öz düşüncə və davranışlarında Quran

və Sünnədən uzaqlaşdıqlarına görə əziyyət çəkirlər. Məsələn, hədis və Sünnəni qeyd-şərtsiz sevən yarısavadlı müsəlman səhihliyinə əhəmiyyət vermədən onların mənasını yanlış anlaya, Peyğəmbərin ənənəsi kimi qəbul etdiyi yanlış qaydalara kor-koranə sadiq qalaraq, başqalarını da azdıra bilər. Bu vəziyyət müsəlmanların geriliyi, din və mənəviyyat da daxil olmaqla həyatın bütün sahələrində tənəzzülün əsas səbəblərindəndir.

Bu gün müsəlmanlar arasında yalnız şəxsi maraq və gizli planlarını reallaşdırmaq məqsədilə müvafiq Quran ayələri və Peyğəmbər rəvayətlərini seçmək meyli müşahidə olunur. Yalnız səhih Peyğəmbər rəvayətlərinə inanmaq və əməl etmək isə Sünnə və hədisə tarazlı yanaşmanın nəticəsidir.

Hədis topluları səhihlik baxımından dörd kateqoriyaya bölünür: Buxari və Müslim kimi alimlərin ən mötəbər əsərləri; Tirmizi, Nəsai və Əbu Davudun yalnız bir neçə şübhəli rəvayət ehtiva edən topluları; İbn Macə və Əhməd kimi alimlərin uydurma hədislərin çoxluq təşkil etdiyi topluları; Təbəraninin çox sayda zəif və uydurma hədis cəmlənmiş əsəri.

Hədisşünasların iddialarına görə, hədislərin səhihliyi onları rəvayət etmiş ravilərin etibarlı olmasından asılıdır. Hədisin səhihliyi onun mətninin təyidi yolu ilə müəyyən edilmir. Müsəlman alimləri ravi beş əsas meyara uyğun gəldiyi təqdirdə, onun hədisini səhih qəbul edirlər. Bu meyarlar: ravi zəncirində ardıcıllıq; xarakterinin tamlığı (dürüstlük, şərəf); güclü yaddaş; gizli nöqsanın olmaması; xətaya yol verməyəcəyinə əminlikdir. Son iki meyarın hədis mətninin tədqiqinə də aid edilməsinə baxmayaraq, hədis alimləri mətnin araşdırılmasında bu meyarları nadir hallarda nəzərə alırlar.

Buna baxmayaraq, hədisin mətn baxımından əlavə tədqiqini tələb edən səbəblər çoxdur. Bu səbəblərə hər hansı bir ravinin mövqeyi ilə bağlı mübahisələr, bəzi ravilərin məlumatın dəqiqliyini qoruya bilməməsi və s. aiddir. Hədis alimlərinin əksə-

riyyətinin fikrincə, Peyğəmbər sünnəsinin onun öz sözlərindən götürülməməsi və yalnız mesajın mənasının ifadə edilməsi də anlaşılmazlığa səbəb olur.

Bundan əlavə, eyni mövzu ilə bağlı hədislər söz və məna baxımından fərqli olduqda, onlar arasında ziddiyyətlər ortaya çıxır. Rəvayətlərdəki fərqlər ravilərin səhvinə görə deyil, Peyğəmbərin müxtəlif hadisələrlə bağlı fərqli açıqlamalarından irəli gəlir. Digər səbəb etibarlı ravilərin yanılmasıdır. Bəzən ravi zənciri səhih olsa da, rəvayətin mətnində qüsur olur. Lakin tədiqatçılar nöqsanın mənbəyi olan mətni araşdırmaq əvəzinə, raviləri günahlandırırlar. Mətndəki qüsuru müəyyən etmək üçün dəqiq meyarlar olmalıdır.

Rəvayətlərə düzəlişlərin edilməsi də hədislərin yoxlanılmasını tələb edir. Hətta səhabələrin dövründə Peyğəmbər rəvayətlərinin düzgün nəql edilməsinə diqqət yetirilirdi. Peyğəmbərin düzgün nəql olunmayan və sonralar mütəxəssislər tərəfindən düzəlişlər edilmiş bəzi bəyənatları da müəyyən dövrlərdə ixtilaflara səbəb olmuşdur.

Hədisin araşdırılması onun aktuallığını müəyyən etmək baxımından da əhəmiyyət kəsb edir. Quran və hədislər Peyğəmbərin təlimlərini ehtiva edir və onların gündəlik həyatımızda təcrübi olaraq tətbiqi nəzərdə tutulmuşdur. Bu səbəbdən Quran və hədis təfsirləri diqqətlə araşdırılmalı və mətnləri yenidən təfsir edilməlidir.

Hədislərin araşdırılması üçün daha bir səbəb onların metodoloji cəhətdən anlaşılmasıdır. Peyğəmbər hədislərini qanunverici və qanunverici olmayan kateqoriyalara bölmək olar. Onların bəzisi məcburi, digər qismi qeyri-icbaridir. Məcburi hədislər Quran, insanın ağlı və Sünnə baxımından, tarixi ardıcıllıqla (*mutəvatir*) nəzərdən keçirilir. Hədis və Quran bir-birinə zidd olduqda, alimlər onların arasında ortaq mövqe seçməlidirlər. İkisi arasında ortaq məxrəc tapılmadıqda, hədis səhihlik sta-

tusunu itrir. Yalnız səhih hədisin mətni metodoloji və təcrübi dəlil mənbəyi kimi istifadə edilə bilər.

Uydurulduğu ehtimal olunan saysız-hesabsız hədis mətnləri mövcuddur. Hədis alimlərinin səhih hədisləri uydurmalardan ayırmaq üçün səylərinə baxmayaraq, yüz faiz dəqiqliyi təmin edə bilməmişlər. Bu səbəbdən bəzi qeyri-səhih hədislər etibarlı ravi zəncirinə istinadən nəql olunduğuna görə hələ də səhih hesab olunur. Ən məşhur mənbələrdə uydurma hədisləri üzə çıxarmağın yeganə üsulu onların mətnlərini araşdırmaqdır.

Fəqihlər arasında müsəlmanların həyatı ilə bağlı mübahisələrdə müəyyən bir hədisin mətninə digər mətnlərə nisbətən üstünlük verilir. Hədislərin araşdırılması ilə bağlı alimlərin məsuliyyəti və vəzifəsi hələ də tam müəyyənləşdirilməmişdir. Hədis islamda müqəddəs mövqeyə malikdir, lakin bu müqəddəslik yalnız səhih hədislərinə aiddir və qeyri-səhih hədislərə şamil edilməməlidir.

Hədislərinin müxtəlif mətnləri arasında ziddiyyətlər hər bir müsəlmanı narahat edir. Buxari və Müslimin qeydə aldıqları hədisləri oxuyub təhlil edərkən belə nəticəyə gəlirik: Hədis təfsirçiləri hədislərin şərhində sabit və universal təfsir prinsiplərinə əsaslanmamış və hədislərə eyni dərəcədə, sabit mövqedən yanaşmamışlar. Onlar rəvayətlərin mətninə deyil, ravi zəncirinə diqqət yetirmişlər.

## Birinci fəsil
## **Peyğəmbər hədislərində qeyri-səhihlik: səbəbləri və aradan qaldırılması üsulları**

Hədislərə yanaşmada mövcud qaydaya əsasən, ravi zənciri (sənad) səhihdirsə, mətnindəki qüsurlara baxmayaraq hədis səhih hesab olunur. Hədislərin mətnindəki uyğunsuzluq şərh

obyektinə çevrilə bilər, lakin hər iki mənbədə verilmiş hansısa məlumatı etibarsız elan etmək qəbuledilməz və günah hesab olunur.

Peyğəmbər rəvayətlərində kəlmə səhvləri və elmi qeyri-səhihlik dedikdə, hər hansı ifadə və ya əməlin qəsdən yaxud yanlışlıqla Peyğəmbərə aid edilməsi nəzərdə tutulur. Bu fəsildə Peyğəmbər rəvayətlərindəki qeyri-səhihlik tarixi nöqteyi-nəzərdən araşdırılmış, problemin səbəbləri və həlli istiqamətində görkəmli müsəlman alimləri tərəfindən həyata keçirilmiş tədbirlər nəzərdən keçirilmişdir. Rəvayətlərdə uydurma olduğu hədis alimləri tərəfindən müəyyən edilmiş şübhəli ifadələrə rast gəlinir. Müəllifin istinad etdiyi ravi zəncirindəki hər hansı ravinin istifadə etdiyi mübaliğəli ifadə və tək dərəcəli sifətlər qeyri-səhih kəlmələr hesab edilir. Hədis təfsirçiləri hər hansı bir rəvayəti qəbuledilməz elan etmək üçün "uydurma", "yalan" və "əsassız" kimi (ərəb dilində) ifadələr istifadə edirlər.

Peyğəmbər rəvayətlərinin uydurulmasına üçüncü xəlifə Osmanın hakimiyyəti dövrünün ortalarında başlanmış, bu meyl Əli və Müaviyənin hakimiyyəti illərində zirvəyə yüksəlmiş və Abbasilər dövrünə qədər davam etmişdir. Qeyri-səhih rəvayətlər xilafət və varislik məsələlərində xalqın rəyinə təsir etmək, İslam təliminin orijinallığını ləkələmək və ya şəxsi maraqların təmin edilməsi məqsədilə Peyğəmbərin adından uydurulurdu. Genişlənən müsəlman imperiyası daxilində üçüncü xəlifə Osmana qarşı siyasi müxalifətin güclənməsi onun öldürülməsi ilə nəticələndi. Əlinin dördüncü xəlifə seçilməsi aparıcı xadimlər arasında müxalifəti gücləndirdi, müsəlman icması üç siyasi cəbhəyə bölündü, hərbi münaqişə və inamsızlıq mühiti yaratdı.

Siyasi qruplaşmalar müsəlmanların əksəriyyətini tədricən öz tərəflərinə çəkmək, öz mövqelərini möhkəmləndirmək məqsədilə Peyğəmbərin adından rəvayətlər uydurmuşlar. Həmin gərgin dövrdə uydurulmuş rəvayətlərdə görkəmli liderlər pislənir və ya təriflənirdi. Məsələn, uydurma rəvayətlərin bəzisində

xəlifə Müaviyənin mövqeyi yüksəldilir, bir qismində isə pislənir. Peyğəmbərlə evlilik şəraiti ilə əlaqədar onun həyat yoldaşı Aişənin lehinə, bəzisi isə əleyhinə yönəlmiş qeyri-səhih hədislər mövcuddur. Məsələn, "Peyğəmbər qadın tərəfindən idarə olunan kəslərin uğur qazana bilməyəcəyini buyurmuşdur" bəyənatı bu qəbildəndir[7]. Bundan əlavə, Peyğəmbərə aid edilən və xəlifə Əli ibn Əbu Talibi tərifləyən hədislər də mövcuddur. "Əlinin üzünə baxmaq ibadətdir" kimi bəyanat onlardan biridir. Eyni zamanda Peyğəmbərin guya Əlinin əleyhinə bəyənat verdiyi barədə hədis də nəql edilir: "Rəhbərlik sənə və sənin nəslindən kiməsə aid deyil"[8].

İslam tarixində "münafiqlər" kimi tanınan bir qrup islama və müsəlmanlara qarşı düşmən mövqe tutur, zahirdə özlərini müsəlman kimi göstərərək daxildə düşmənçiliyi davam etdirir, azdırıcı inanclar yayırdılar. Onlar müsəlman həyatının əksər sahələrinə dair qeyri-səhih hədislər uydurmuşlar. Həmin münafiqlərdən biri ölməzdən öncə halalı haram, haramı isə halal elan etmək məqsədilə Peyğəmbərin adından dörd min hədis uydurduğunu iddia edirdi.[9] Bundan əlavə, Mədinədə bəzi narazı qruplar müsəlmanların birliyini parçalamaq üçün İslamın fundamental təlimini sarsıtmağa yönələn hədislər uydururdular. İslamı qəbul etmiş yəhudi İbn Səba Peyğəmbərin adından bir sıra hədislər uydararaq müsəlman icması daxilində yaymışdır. İslamın əleyhdarları zəkatın ödənilməsinə mane olmaq, İslam miras qanunlarını dəyişdirmək və müsəlmanları nikahdan çəkindirmək məqsədi daşıyan çox sayda hədis uydurmuşlar.

Müsəlman ərazilərinin yeni ölkələrin ələ keçirilməsi yolu ilə genişlənməsi Quranın mövqeyi, insanın taleyinin öncədən müəyyən edilməsi haqqında fikirlər, insanın azadlığı, günahın mahiyyəti və digər mövzularda alimlər arasında yeni mübahisələr və fikir ayrılıqlarına səbəb oldu. Fərqli yanaşmaların tərəfdarları və mübahisə edən tərəflərə aid olan ilahiyyatçı

qruplar imanın mahiyyəti kimi mövzularda Peyğəmbərin adından uydurulmuş hədislərlə ictimaiyyəti inandırmağa çalışırdılar.

İslam tarixinin ilk dövrlərində islam hüququ sahəsində fəqihlərin rəqabəti hədis uydurma meylinin yaranma səbəblərindən biri idi. Aralarında fikir ayrılığı olan görkəmli fəqihlər islam şəriətini təfsir etmiş və insanları öz ictihadları əsasında istiqamətləndirmişlər. Təəssüf ki, bu görkəmli imam və alimlərin ardıcılları kiçik ixtilafları böyüdərək, öz fiqh məktəblərinin lehinə hədislər uydururdular. Belə hədislərdən birinə görə, guya Peyğəmbər buyurmuşdur: "Əgər hər hansı bir şəxs namazda əllərini yuxarı qaldırsa, onun namazı qəbul olmaz"[10].

Hədislərin uydurulmasının ticari təbliğat, şöhrətpərəstlik və ya müxtəlif hakim sülalələrin himayəsinə hərislik kimi başqa səbəbləri də olmuşdur. İslamın ilk üç əsrində dünyanın böyük bir hissəsində islam hakimiyyəti bərqərar olduğu zaman tacirlər məhsulların təbliği məqsədilə Peyğəmbər rəvayətlərindən istifadə edirdilər. Nar, xurma, badam və s. kimi ticarət məhsullarının tərifləndiyi bir çox hədislər uydurulmuşdu. Özlərinə çoxlu ardıcıl cəlb etməyə çalışan bəzi insanlar məscidlərdə uydurma hədislər nəql edərək ravi obrazı yaradır və ya camaata təsir etmək məqsədilə dindar kimi görünüb, şəxsi maraqlarını təbliğ edirdilər.

Müsəlman alimləri hədislərin qeyri-səhihliyi problemini həll etmək məqsədilə müxtəlif tədbirlər görmüşlər: Peyğəmbər rəvayətləri ilə bağlı *sənad* sistemini inkişaf etdirmişlər; Raviləri araşdırmış və yalnız etibarlı mənbələrdən istifadə etmişlər; ravilərin tərcümeyi-hallarını tərtib etmişlər; Səhih hədislərlə bağlı əsərlər tərtib etmişlər; etibarsız və qeyri-səhih hədislərdən ibarət toplular hazırlamışlar. İslamın erkən dövrlərində Peyğəmbərin adından saysız-hesabsız rəvayətlər nəql edilməsi dəb halını aldıqda, İslam ümmətinin görkəmli nümayəndələri bu problemin həlli yolunu axtarmağa məcbur oldular. Onlar

hədis mətni ilə birlikdə ravi zəncirinin qeyd olunmasının[11] və hədis mətninin yalnız etibarlı mənbələrdən götürülməsinin zəruriliyini bəyan etdilər[12].

Saysız-hesabsız hədis ravilərinin həyatını tədqiq etmək, onların həqiqi, zəif, etibarsız və ya uydurma olduğunu bəyan etmək incə iş idi. Çox sayda görkəmli alim hədis ravilərinin mövqeyini araşdırmaqla məşğul olmuşlar. Ravilərin şəxsiyyəti ilə bağlı ciddi araşdırmalar onların etibarlı olub-olmamasını müəyyənləşdirməyə kömək etdi. Hədis raviləri dörd kateqoriyaya bölünürdü: yekdilliklə səhihliyi təsdiqlənmişlər; zəifliyi mübahisə doğurmayanlar; alimlər arasında mübahisəyə səbəb olanlar; yekdilliklə yalançı elan edilənlər.

Peyğəmbərin adından uydurulmuş qeyri-səhih hədislər hələ əsrlər öncə aradan qaldırıla bilərdi. Lakin hədis alimləri qeyri-səhihliyinin təsdiqinə baxmayaraq, onları əzbərləyib uydurma olduqlarını da vurğulayaraq gələcək nəsillərə ötürmüşlər. Sonrakı alimlər nəsli də hansı hədislərin uydurma olduğunu gələcək alimlərə çatdırmaq məqsədilə onları qoruyub saxlamışlar. Bütün hədis toplularında ravi zənciri və hədis uyduran şəxslərin etibarlı mənbələri necə öz adlarına çıxdıqlarına dair məlumat verilməklə, hədisin qeyri-səhihliyini sübut edən müfəssəl və tutarlı dəlillər əks olunmuşdur.

## İkinci fəsil
## **Hədislərin mötəbərliyinin müəyyən edilməsində müsəlman alimlərinin rolu**

Bu fəsildə alimlərin araşdırmalarının nəticələri iki cəhətdən nəzərdən keçirilir: ravi zənciri və mətn. Hər bir hədis ravi zənciri (*sənad*) və mətndən ibarət olur. Uzun və ya qısa *sənad* Peyğəmbərin kəlamları və ya əməlləri haqqında məlumat verən mənbələr, ravi zəncirindən ibarətdir. Mətn Peyğəmbərin dediklərini və ya əməllərini əks etdirən məlumatlardır. Peyğəmbə-

rin dövründə və ondan sonrakı üç onillik ərzində ravi zənciri etibarlı hesab olunurdu. Bu dövrdə əsas diqqət hədis mətninə yönəlmişdi.

Hədislərin yoxlanılması ilk müsəlman xəlifəsi Əbu Bəkrin dövrünə təsadüf edir. Onun hədislərin səhihliyini təmin etmək üçün müəyyən etdiyi qaydaya əsasən, bir səhabənin nəql etdiyi hədis başqa səhabə tərəfindən təsdiqlənmədikdə etibarlı hesab edilmirdi. Səhabələrin müasiri olmuş alimlər hədisi bu cür əlavə təsdiqlənmə olmadan qəbul etmirdilər[13]. Sonrakı dövrün alimləri bütün ravilərinin etibarlı şəxslər olduğunu müəyyən etdikdən sonra hədisin səhihliyini təsdiqləyirdilər[14]. İslamın birinci əsrinin ikinci yarısından etibarən ravi zənciri və ravilərin bioqrafik məlumatları hədislərin doğruluğunun yoxlanılmasında mühüm yer tutdu. Hədis raviləri haqqında məlumatlar o zamanlar ravi zəncirinin mötəbərliyini yoxlamaq üçün geniş şəkildə istifadə olunurdu. Əgər zəncir etibarlı idisə, onların nəql etdiyi mətn də səhih hesab olunurdu. Həmin zəncirdə hər hansı bir problem nəzərə çarpırdısa, hədis də zəif və ya etibarsız sayılırdı.

İslamın yayıldığı ilk bir əsr yarım müddət ərzində hədislərin səhihliyinin təsdiqi şifahi şəkildə həyata keçirilirdi. Buxarinin dövründə çox sayda yazılı toplu mövcud olsa da, onlarda qüsurlar çox idi. Buxarinin qarşısında duran vəzifə ən mötəbər hədislərdən ibarət toplu tərtib etmək idi. O, bu məqsədlə 600 min hədis (*əhadis*) arasından rəvayətlər seçməli idi[15]. Müslim isə tərtib etdiyi toplu üçün hədisləri 300 minə yaxın rəvayət arasından seçmişdi[16]. Qeyd olunan və digər hədis toplularının səhihliyi ravi zəncirinin yoxlanması yolu ilə təsdiqlənmişdir. Lakin eyni zamanda həm mətni, həm də ravi zəncirinin etibarlılığı təsdiq edilmiş hədis toplusuna rast gəlinmir. Bəzi alimlər müəyyən hədislərin mətni ilə bağlı şərhlər yazsalar da, bu sahədə ciddi fəaliyyət həyata keçirilməmişdir.

Mütəxəssislər hədisin etibarlılığı və səhihliyini müəyyən etmək üçün beş ümumi meyar müəyyən etmişlər: ravi zəncirinin ardıcıllığı[17]; ravilərin şəxsiyyətinin eibarlılığı[18]; haqqında məlumatın tamlığı; rəvayətin həqiqiliyi[19]; nöqsanların olmaması[20]; normalara uyğunluq[21]. Qeyd edilmiş beş şərtə uyğun olan hədis səhih hesab edilir. Səhihlik şərtlərinin hər hansı birinə uyğun olmayanlar zəif hədisdır[22]. Hədisin etibarlı hesab edilməsi üçün ravi zənciri qırılmamalı, zəncirdə heç bir ravinin adı əskik olmamalıdır. Hər bir ravi hədisi özündən əvvəlki ravidən bilavasitə eşitmiş olmalı, ravi zəncirinin başlanğıcı birbaşa Peyğəmbərə və ya onun hər hansı bir səhabəsinə gedib çıxmalıdır. Ravi İslam dininə inanan və etibarlı şəxs olmalıdır. İmansızlıq, ikiüzlülük, dəlilik və ya bioloji cəhətdən yetişkən olmaması kimi keyfiyyətlər ravinin etibarsız hesab edilməsinə səbəb olur. Nəhayət, ravi güclü yaddaşa malik olmalıdır.

Buxari və Müslim bütün dövrlərin ən görkəmli hədis alimləri hesab edilirlər. Onların dəqiq müəyyən edilmiş meyarlara əsaslanan təsnifat və araşdırma metodları hədislərin səhihliyinin müəyyənləşdirilməsi metodologiyasının əsasını qoymuşdur. Bu alimlər hədislərin mötəbərliyinin müəyyən edilməsi sahəsində müəllim və rəhbər statusuna malikdirlər.

Müasir dövrdə Özbəkistan ərazisi olan bölgədə dünyaya gəlmiş imam Buxari ən mötəbər hədis toplusu hesab edilən əsərinə daxil etdiyi hədislərin ravi zəncirini ciddi şəkildə araşdırmışdır. İranlı imam Müslimin Buxarinin metodologiyasına riayət etməsinə baxmayaraq, Buxari onun təqdim etdiyi ravi zəncirində qüsurların olduğunu bildirmişdir. Müslimin işinin gözəlliyi rəvayət qeydinin xüsusi təşkilində idi. Belə ki, o, eyni mövzuya aid olan bütün mötəbər rəvayətləri eyni fəsildə yerləşdirmiş, Buxari kimi dağınıq qeyd etməmişdir.

Hədisşünaslar hədisləri ümumi meyarlar əsasında araşdırmadılar. Buxari və Müslim hədislərin mötəbərliyinin təsdiqlənməsi üçün ravi zəncirinin səhihliyinin əsas meyar olduğuna

əmin idilər və bu səbəbdən ravi zəncirini ciddi şəkildə araşdırırdılar. Onlar hətta səhih hesab edilən hədisləri yalnız ravi zənciri nöqteyi-nəzərindən təhlil və tənqid edirdilər. Bir neçə alim hədisin mötəbərliyinin onun mətninin səhihliyini araşdırmaq yolu ilə müəyyən edilməsi işinə töhfə vermiş və bu üsula uyğun meyarlar müəyyən etmişlər.

Alim Misfir bin Qurmullah əd-Dümeyni səhabələrin Qurana istinad edərək hədisləri araşdırma təcrübələrinə dair misallar göstərmişdir. O, digər hədisşünasların hədislərdəki qüsurları müəyyən etmək üçün istifadə etdikləri metodları nəzərdən keçirərək bu misalları seçmiş, hədislərin Qurana əsasən, təkrarı olmayan tək hədislər, nisbətən mötəbər rəvayətlər olması, yaranma tarixinin, həmçinin, yanlış söz və mənaların mövcud olmaması, islam hüququnun qayda və prinsiplərinə uyğunluq, rəzillikdən uzaq olma və mümkünlük kimi keyfiyyətlərinin müqayisəsi yolu ilə təsdiq edildiyini vurğulamışdır.

Dümeyni müsəlman fəqihlərin hədis mətnlərinə yanaşmalarını araşdırarkən Quran, Sünnə, ümmətin ümumi rəyi, səhabələrin əməlləri, məntiqi bənzətmə, ümumi prinsiplər və tək rəvayətlərin təsiri kimi meyarlar müəyyən etmişdir. Səhabələr dövründən etibarən müsəlman alimləri Peyğəmbər hədislərinin qorunub saxlanması və mötəbərliyinə xüsusi diqqət yetirmişlər. İlk dövrlərdə hədislər həm ravi zənciri, həm də mətn baxımından araşdırılırdı. Məşhur hədis əsərlərinin tərtib edildiyi II və III əsrlərdə alimlər ravi zəncirinin araşdırılmasının təməl prinsiplərini müəyyən etdilər. *Ulum əl-hədis* alimləri hədisin mətninin araşdırılmasına diqqət yetirməyə başladılar. Bu əsərlərdən ən məşhurları İbn əl-Cövzi, İbn əl-Qayyim və Dümeyninin toplularıdır.

## Üçüncü fəsil
## **Quran və hədislərin mötəbərliyi**

Bu fəsildə hədislər Qurani-Kərimin prinsip və təlimatları əsasında araşdırılmışdır. Hədisə nisbətən Quranın mövqeyinin üstünlüyü mövzusunda həmrəy olan müsəlman alimləri hədis ilə Quran arasında ziddiyyət yarandığı zaman hədisin qəbul edilməyəcəyini bildirmişlər. Beləliklə, Peyğəmbərin kəlam və əməlləri *bəyanı* simvolizə etdiyi üçün Quran və bəyan bir-birini tamamlamalıdır.

"Nisa" surəsinin 59-cu ayəsi möminləri hər bir mübahisədə Allah və Peyğəmbərini hakim etməyə çağırır. Müsəlmanlar Peyğəmbərin həyat yoldaşı Aişə ilə Quran ayələri, Peyğəmbərin kəlam və əməlləri, İslam şəriəti barədə tez-tez məsləhətləşərdilər. Peyğəmbər haqqında uydurma rəvayətləri rədd edən Aişəyə görə hədislər Qurana və Peyğəmbərin kəlamlarına zidd olmamalı idi. Uydurma hədislər əsasən Peyğəmbərin bəyanatları, İbrahim peyğəmbərə aid ifadələr, həmçinin, insan taleyinin əvvəlcədən müəyyən edilməsi, cənnətə daxil olmaq üçün insanın əməllərinin əhəmiyyətsiz olması, islamın zorla qəbul etdirilməsi, Musanın öz ölümünü gecikdirmə gücü, qadınların ərlərinə vəfasızlığının əsas səbəbi kimi Həvvaya istinad və başqa mövzularla əlaqəli idi.

## Dördüncü fəsil
## **Rasional cəhətdən mötəbər sayılan rəvayətlər vasitəsilə hədislərin səhihliyinin təsdiqi**

Bu fəsil mötəbər Peyğəmbər rəvayətlərindən istifadə yolu ilə hədis mətnlərinin araşdırılmasına həsr edilmişdir. Möminlər üçün Peyğəmbər qəti hökmlər verən ("Nisa" surəsi, 65-ci ayə) hakim mövqeyindədir ("Əhzab" surəsi, 36-cı ayə). Peyğəmbər

Qurani-Kərimi izah etmək, Allahın əmrlərinin gündəlik həyatda tətbiqini aydınlaşdırmaq, ardıcıllarına kömək və onları mühakimə etmək, həyatını islam prinsiplərinə uyğun yaşamaqla öz missiyasını iyirmi ildən artıq bir müddətdə həyata keçirdi. Bu İslam mirası onun ölümündən sonra da davam etməli idi, lakin yalnız şəxsi mənfəətlərini güdənlər həmin mirasa xəyanət etdilər. Nəticədə, onlar öz istək və şıltaqlıqlarını Peyğəmbərin adından yaymağa başladılar. Bu vəziyyətdə Quran, məşhur hədislər və Sünnə Peyğəmbər haqqında rəvayətlərin mahiyyətini müəyyən etmək üçün istifadə edilə bilər. Peyğəmbər buyurur: "Kim bizim əməlimizə uyğun olmayan bir əməli edərsə, o əməl rədd edilir"[23]. Bu səbəbdən ən mötəbər Sünnə və hədislərlə ziddiyyət təşkil edən rəvayət və kəlamlar hədis hesab edilmir.

Eyni mövzuya aid olan, lakin bir-biri ilə ziddiyyət təşkil edən müxtəlif hədisləri müqayisə etmək çətin və incə bir işdir, əsaslandırma tələb edir. Məzmunu digər rəvayətlə ziddiyyət təşkil edən hədisin etibarsız hesab edilməsi üçün əsaslı səbəblər göstərilməlidir. Ümumiyyətlə, hədislə Sünnə arasında ziddiyyət mövcud olduqda ikinciyə üstünlük verilir.

Məsələn, müsəlman hədislərindən birində hadisələrin əvvəlcədən müəyyən edilmiş plana uyğun olaraq baş vermədiyi barədə danışılır. Həmin hədisə görə, insanın ruzisinin miqdarını artırmaq və ömrünü uzatmağın heç bir yolu yoxdur. Hədisdə məhz bu səbəbdən Peyğəmbərin uzun ömür və gəlirin artması üçün dua etməməyi tövsiyə etdiyi bildirilir. Bu, Ənəs ibn Malikin nəql etdiyi başqa bir hədislə ziddiyyət təşkil edir. Qeyd edilən hədisdə Peyğəmbərin öz xidmətçisinin sərvəti və uşaqlarının sayının artması üçün dua etməsindən bəhs olunur[24]. İki rəvayət arasında uyğunluq qeyri-mümkün olsa da, birinci rəvayət Peyğəmbərə aid edilən bəyanat (hədis), ikinci rəvayət isə Peyğəmbərin əməli (sünnəsi) idi.

# Beşinci fəsil
## **Hədislərin mötəbərliyinin məntiq əsasında təsdiqi**

Şüur insanın mövcudluğunda mühüm rol oynayır.[25] Bu güc bəşəriyyəti yer üzündə ən yüksək məqama yüksəldir və düzgün istifadə etdiyi zaman onun öz insanlığını qorumasına kömək edir[26]. Quranda insanın zehni gücünə böyük əhəmiyyət verilir, çünki ağlın rəhbərliyi olmadan həqiqi iman və yaxşı əməllər qeyri-mümkündür. Allahın hər bir peyğəmbəri öz qövmünü ilahi risalətə idrak vasitəsilə çatmağa dəvət edirdi. Əqli təfəkkür Quranı anlamaq üçün bir vasitədirsə, hədis ədəbiyyatının mahiyyətini dərk etmək üçün də mövcud olmalıdır.

Bu kontekstdə ağıl meyarı olaraq sadə zehni qabiliyyət deyil, həm də idrak, ədalət, dürüstlük, doğruluq, mötədillik və səmimiyyət kimi Allahın təyin etdiyi islam prinsiplərinə əsaslanan "sağlam şüur" və ya "sağlam idrak" müəyyən edilə bilər. Bu prinsip Buxari, Müslim və digər hədis alimlərinin qeydə aldıqları, Qiyamət günü yalnız Məhəmməd peyğəmbərin bəşəriyyətin adından şəfaət diləmək qüdrəti və şərəfinə layiq olacağı vurğulanan hədisdə tətbiq edilmişdir. Lakin həmin hədisdə əvvəlki dörd peyğəmbərin (Adəm, Nuh, İbrahim və Musa) keçmiş günahlarına görə Allahdan kömək istəməyə cəsarət edə bilməyəcəkləri göstərilir. Rəvayət İsanın da insanlara kömək etmə hüququndan məhrum edildiyini və yalnız Məhəmməd peyğəmbərin şəfaət diləmə imtiyazı olduğunu bildirir.

Bu rəvayətdə Adəm qadağan olunmuş meyvəni yemək günahından bəhs edir, lakin o, tövbə etdiyi və Allah tərəfindən bağışlandığı üçün bu hadisəni xatırlatmamalı idi. Nuh öz qövmünə qarşı dua etməklə səhv etdiyini desə də, əslində bu, günah deyildi. Belə ki, o, Allahdan cəmiyyətə qarşı yönəlmiş ünsürlərin məhv edilməsini diləyərək, yer üzündə sülh və ədalətin bərqərar olması üçün dua edərək əslində bəşəriyyəti

xilas etməyə çalışmışdı. Onun duası bəşəriyyəti xilas etdi. İbrahimi isə Allah Özü "haqq adamı" kimi təsvir etmişdir. Musa öz peyğəmbərliyindən əvvəl baş vermiş qəsdən adam öldürmə günahından bəhs etsə də, həmin şəxsi qəsdən deyil, təsadüfən öldürmüşdü. Bundan əlavə, peyğəmbər olduqdan sonra həmin hadisəyə görə günahlandırılmamalı idi. Bütün peyğəmbərlər Allah tərəfindən bağışlanmaq şərəfinə malikdirlər. Şəfaətlə bağlı bu hədis Allahın öz digər peyğəmbərlərini şərəfə layiq görməklə Məhəmməd peyğəmbərin tərifini daha da ucaltmasının bariz nümunəsidir.

Müslim və Buxari tərəfindən qeydə alınmış digər hədisdə kişilərə nisbətən qadınların əqli və dini cəhətdən geriliyi bəyan edilir, lakin Quran və Peyğəmbərin əməllərinə əsaslanan prinsiplər və əqli mühakimə bu hədisin qeyri-səhihliyini müəyyən etməyə imkan verir. Bu fəsildə on bir hədis insan zəkası və məntiqinin gücü vasitəsilə ətraflı araşdırılmışdır. Hədisin mətni onun mahiyyətini və məqbul olub-olmadığını göstərir. Quranda insan ağlının həqiqəti batildən ayırmaq üçün etibarlı meyar olduğu vurğulanır. Bu səbəbdən, mənşəyindən asılı olmayaraq bütün alim və tələbələr hədis ədəbiyyatında həqiqəti kəşf etmək üçün əqlin imkanlarından istifadə etməlidirlər.

## Altıncı fəsil
## **Hədislərin mötəbərliyinin tarixə əsasən təsdiqi**

Bu fəsildə hədis mətnlərində verilmiş tarixi faktları əsaslandırmaq üçün istifadə olunan tarixi meyar araşdırılmışdır. Tarixin öyrənilməsi vacibdir və onun əsas məqsədlərindən biri maarifləndirmədir. Tarix bəşəriyyətə keçmiş səhvlərini düzəltməyə və əldə etdiyi nailiyyətlərdən ilham almağa kömək edən ideal bələdçi olmalıdır. Quran, tarixi bir müəllim kimi təqdim edir. Hədis ədəbiyyatı bir çox tarixi mövzu və faktı əks etdirir.

Rəvayətlərdəki məlumatlar tarixi bəzən təsdiqləyir, bəzən də təkzib edir. Hədisdə verilmiş məlumat tarixi faktlara zidd olduqda, rəvayət ravi zəncirinin mötəbərliyindən asılı olmayaraq şübhəli hesab edilir.

Rəvayətlərdəki tarixi məlumatların həqiqiliyini yoxlamaq üçün onları tarixdəki məşhur döyüşlər, qeydlər, doğum və ölüm tarixləri ilə müqayisə etmək, zamanının uyğunluğunu müəyyənləşdirmək olar. Bunun əksinə olaraq, mötəbər hədislərə etibarlı tarixi mənbə kimi də yanaşaraq, məlum tarixi faktlarda dəyişikliklər etmək olar. Səhih hədislər tarixi mənbədir.

Müslimin qeydə aldığı iki hədisdə vəfat etdiyi zaman Peyğəmbərin yaşını göstərən fərqli rəqəmlər verilmişdir (63[27] və 65[28] yaş). O, həmin tarixlərin düzgünlüyünü müəyyən etmək üçün ravi zəncirinin mötəbərliyi meyarına əsaslanmışdır. Müslim hədisdəki informasiyanın düzgünlüyünü məlum tarixi faktlara əsasən müəyyənləşdirsəydi, bu rəqəmlərdən yalnız birini qeyd edərdi. Digər alimlər Peyğəmbərin vəfatı zamanı 63 yaşında olduğunu düzgün fakt hesab edirlər[29].

Başqa bir misalda Müslim Məhəmməd peyğəmbərin ona peyğəmbərlik verilməsindən sonra 15 il Məkkədə, hicrətdən sonra 10 il Mədinədə qaldığını qeyd etmişdir.[30] Müslim bu məlumatın başqa bir versiyasını da təqdim edərək, Peyğəmbərin Məkkədə 13 il, Mədinədə 10 il qaldığını göstərir[31]. Buxarinin məlumatından fərqli olaraq, Müslümün məlumatı mövcud tarixi faktlara ziddir. Əslində, Peyğəmbər Allahın rəsulu təyin edildikdən sonra 13 il Məkkədə, hicrətdən sonra 10 il Mədinədə yaşamışdır.[32]

# Yeddinci fəsil
# Hədislərin səhihliyinə mötədil yanaşma

Fəsildə hədisin mötəbərliyinin müəyyən edilməsində digər meyar – mötədillik nəzərdən keçirilmişdir. İslam sabit həyat tərzidir. Onun qayda və qanunları hər sahədə tarazlıq prinsipini tətbiq edir. İslama aid edilən mübaliğəli və ya ifrat görünən məsələlər həqiqi imana daxil deyil. Qeyd olunan prinsiplərə əsasən Peyğəmbərin səhabələri həddindən artıq sərvət və eyni zamanda həddindən artıq mənəvi məhrumiyyətdən imtina etməli idilər. Həyatın bir tərəfində tarazlığın pozulması digər tərəfində də ifratçılığa səbəb olur.

Quran insanı bütün vəziyyətlərdə orta, mötədil yolu seçməyə çağırır. Peyğəmbər ifratçılıqdan çəkinir, ümmətinə həyatda ədalətli olmaq və tarazlığı qorumağı tövsiyə edir. Onun təlimi, davranışı və dedikləri mötədilliyin təzahürüdür.[33] Bu səbəbdən Peyğəmbərə aid edilən hər hansı ifrat davranış və söz yalan və uydurma olaraq rədd edilməlidir.

Məsələn, Peyğəmbər vacib və nafilə namazların (səlah) qılınmasının vaxt və enerjiyə qənaət baxımından balanslaşdırılmış üsulunu göstərmişdir. Bu səbəbdən çox vaxt və enerji tələb edən ibadəti təbliğ edən hədislər şübhə doğurur və zəif ravi zəncirinə malikdir. Ümumiyyətlə, məzmununda qeyri-mütənasiblik olan rəvayətlər rədd edilməlidir.

Quran kimi, hədislərdə də insanın yaxşı əməllərinə görə mükafat, pis əməllərinə görə cəza alacağı qeyd olunur. Quranda bu cür məlumatlar ümumi şəkildə təqdim edilərək, həqiqəti inkar etməyin ağır əzab və zillətə səbəb olacağı, Allaha itaətin isə qiyamət günü lütfkarlıqla mükafatlandırılacağı qeyd olunur. Hədis ədəbiyyatında mükafat və cəza ilə bağlı təfərrüatlar azdır və bəziləri mübaliğəli şəkildədir. Məsələn, hədisşünaslar aşağıdakı rəvayətlərin mətninə əsasən onların uydurma oldu-

ğunu müəyyən etmişlər: "Yatmazdan əvvəl müəyyən bir duanı oxuyan şəxs 700 min mələk tərəfindən izzətləndiriləcək", "Yatmazdan əvvəl Allaha həmd oxuyan şəxs doğulduğu gündəki kimi günahsız olar"; "Bir saat təfəkkür 60 illik ibadətdən yaxşıdır" və s. Bu misallardakı mübaliğələr Peyğəmbərin təliminə uyğun deyil.

## Səkkizinci fəsil
## **Buxarinin qədərə həsr olunmuş fəsli: dəyərləndirmə və təfsir**

Bu bölmə Buxarinin kitabının "Kitab əl-qədər" (Qədər/qismət haqqında fəsil) adlı fəslinin müzakirəsi və yenidən şərhinə əsaslanır. Həmin fəsildə qeydə alınmış iyirmi yeddi hədis asanlıqla, yalnız müəyyən bir meyar əsasında dəyərləndirilməməlidir. Bu hədislər bölmənin mövzusu və onun müsəlman psixikasına güclü təsiri ilə əlaqədar olaraq bir neçə nöqteyi-nəzərdən və psixoloji baxımdan araşdırılmalıdır.

Buxarinin "Əl-Cami əs-səhih" əsəri ən məşhur və dəyərli hədis toplusudur. Əsər Qurandan sonra ən etibarlı kitab hesab edilir.[34] Müsəlman şüuruna böyük təsir göstərmiş bu kitab İslam hüququnun mənbəyi kimi bütün müsəlman dünyasında oxunur və ona istinad edilir. Kitabın qədərlə bağlı fəsli hələ insan doğulmazdan əvvəl onun həyatı və sonunun müəyyən olunduğunu ifadə edən tale anlayışından bəhs edir. Bu hədislər müsəlmanların insanın məsuliyyətini dərk etməsi üçün əhəmiyyətlidir və diqqətlə araşdırılmalıdır. Bu baxımdan aşağıdakı nümunə diqqəti cəlb edir.

Müsəlman dünyasında insanın taleyinin öncədən müəyyən olduğuna dair mübahisələr islamın ilk əsrindən mövcuddur. Tale haqqında nəzəriyyənin lehinə irəli sürülən dəlillər Quran ayələri və bəzi rəvayətlərə, xüsusilə Buxarinin öz toplusunun "Kitab əl-qədər" adlı fəslində qeyd etdiyi hədislərə əsaslanır.

Buxarinin, seçdiyi hədislərin *sənadının* (ravi zənciri) etibarlılığına diqqətli yanaşdığı deyilir. "Kitab əl-qədər"də bu meyar əsasında toplanmış hədislərin mötəbərliyi ehtimal olunur. Buna baxmayaraq, iyirmi yeddi hədisin mətn və məzmunu onlara şübhə ilə yanaşmağa əsas verir. Ümumiyyətlə, hədislərin şərhi beş metodoloji elementi özündə birləşdirir: ravi zənciri, rəvayətin verdiyi mesaj, rəvayətin məzmununun tamlığı üçün digər mənbələrdən əldə edilmiş məlumatlar, hədisin mənşəyi və alimin başqalarının fikirlərinə müsbət və ya mənfi yanaşması.

Alimlər *qədəri* müxtəlif cür səciyyələndirmişlər: güc, insanın qabiliyyəti, Allahın sonsuz qüdrəti, Allahın əmri, müqəddərat və ilahi hökm. Alim Həmzə Məhəmməd Qasim Allahın yaradılışdan əvvəl hər şeyi bildiyini vurğulamışdır[35]. İbn Teymiyyə *qədəri* iki cür şərh edir: Allahın yaradılanların gələcək əməlləri və insana aid olan hər şey haqqında sonsuz biliyi; İnsanın əməlləri də daxil olmaqla hər şeyin Allahın iradəsinə tabe olması[36]. Quranda "*əl-qədər*"kəlməsi 132 dəfə müxtəlif variantlarda istifadə olunmuş, mənası kontekstdən asılı olaraq dəyişmiş və təxminən 14 fərqli məna çaları ilə ifadə olunmuşdur. Bəzi mənalar həm bəşəri, həm də ilahi cəhətlərə (güc, qüdrət), bir qismi müstəsna olaraq insana (təqdir, tarazlıq, qabiliyyət), bəzisi də yalnız Allaha (qətiyyət, Qiyamət günü və s.) aid edilir.

Quranda insanın həyatının bütün cəhətlərininin Allah tərəfindən öncədən müəyyən edilməsindən və Qiyamət günündən bəhs edilmir. Məntiqi cəhətdən, müqəddaratın öncədən təyin olunması ideyası Quranın çərçivəsinə uyğun gəlmir. Quran insanlar və cinlərin üzərinə əxlaqi cəhətdən məsuliyyət qoyur, əxlaqi düşüncə və davranışlar isə əvvəlcədən müəyyən edilə bilməz. İnsanın yalnız fiziki və əqli xüsusiyyətlərinin öncədən müəyyənləşdirildiyini mümkün hesab etmək olar.

Alimlər Quranda bəyan edilən "Halbuki sizin və düzəltdiklərinizin yaradıcısı Allahdır" ("Saffat" surəsi, 96-cı ayə) ifadəsinə əsaslanaraq, insan taleyinin əvvəlcədən müəyyən edildiyi

fikrini irəli sürürlər. Müslimin qeyd etdiyi bir hədisə əsaslanan İbn Həcərin iddiasına görə, bu ayə insan həyatının bütün təfərrüatları ilə, əvvəlcədən müəyyən edildiyini göstərir[37]. Halbuki həmin ayə insan əməllərinin yaradılmasından bəhs etmir, İbrahim peyğəmbərin daş və ağacdan hazırlanmış bütlərə sitayiş edən qövmünə söylədiyi sözlərin bir hissəsidir. Ayənin kontekstindən ayrı oxunması anlaşılmazlığa və yanlış təfsirlərə səbəb olur.

**İnsanın taleyinin ana bətnində yazılması**

Bu bölmədə "Kitab əl-qədər" adlı fəsildə qeyd edilmiş ilk hədis nəzərdən keçirilmişdir. Abdullah ibn Məsudun istinad etdiyi hədisə görə, Peyğəmbər uşaq ana bətnində olarkən, Allah tərəfindən göndərilən mələyin onun əməlləri, ölüm vaxtı, dolanışığı, xoşbəxt və ya bədbəxt olacağını yazmaq üçün gəldiyini demişdir[38]. Bu hədisin ravi zənciri etibarlıdır, ardıcıllıq, tamlıq və güclü yaddaş kimi üç əsas meyara uyğundur. Bu üç meyarlar ravi zəncirinə, digər ikisi (normal olması və qüsursuzluq) mətnə aiddir. Bu halda, hədis (tam mətni) insanın embrional inkişaf dövrünün elmdə məlum olduğu kimi iki həftə deyil, on yeddi həftə davam etdiyini göstərir. Hədisdə istifadə olunan kəlmənin embrional dövr deyil, döl dövrünü ifadə etdiyini güman etmək olar.

Bu məsələ ilə bağlı Quran ayələrinin ("Muminun" surəsi, 13-14-cü ayələr) Peyğəmbər dövründə mikroskop və ya digər vasitələrin olmamasına baxmayaraq, müasir biologiyaya tam uyğunluğu inanılmazdır. Buxarinin qeydə aldığı hədisdə isə ravilərdən birinin insan rüşeyminin inkişaf müddəti haqqında məlumatda səhvə yol verdiyini güman etmək olar. Rüşeymin inkişaf dövrünün on yeddi həftə davam etməsi isə sonradan daxil edilmiş əlavə məlumat ola bilər. Bu səbəbdən, rəvayətdə qüsur (illə) vardır və hədis qeyri-səhih hesab olunur.

Buxarinin qeydə aldığı hədisdə insan taleyinin yazılmasının on yeddi həftədən sonra başlandığı göstərildiyi halda, Müslimin seçdiyi eyni mövzuya malik mötəbər hədisdə bu prosesin

yalnız altı həftədən sonra başlandığı qeyd edilmişdir[39]. Müslümün qeydə aldığı hədis elmi faktlara uyğundur. İki etibarlı hədis arasında ziddiyyət yarandıqda onlardan yalnız biri qəbul edilir. Müslimin rəvayəti məntiqi cəhətdən Buxarinin qeyd etdiyi hədisə nisbətən daha səhihdir. Onun rəvayətində qüsur yoxdur və gen mühəndisliyi sahəsində müasir kəşflərin nəticəsinə uyğundur. Buxarinin qeydə aldığı hədis Müslimin daha etibarlı hədisi ilə ziddiyyət təşkil etdiyi üçün istisnadır (şəzz).

Buxarinin qeydə aldığı və insanın əməlləri ilə bağlı təfərrüatları əks etdirən hədis insanın taleyinin əvvəlcədən müəyyən olunduğunu deyil, Allahın hər şeyi bildiyini vurğulayır. Hədis Əhli-sünnə mənsubları və Qədərilərin fikirləri ilə ziddiyyət təşkil etməklə yanaşı, həyatı qədərlə əlaqələndirən yanaşmanı dəstəkləyir. Bununla belə, Buxarinin hədisini tamamilə rədd etmək əvəzinə, onun qüsurlarını müəyyən etmək və onları digər mövcud versiyalara uyğun şəkildə düzəltmək məqsədəuyğundur. Diqqətli araşdırma taleyin hamiləlikdən 42 gün sonra başladığını, ömrün, əməllərin, ruzi və xasiyyətin Allah tərəfindən müəyyən edildiyini bildirən hədisin alimlər tərəfindən yenidən şərhinə kömək edə bilər. İnsanın ömrünün sonuna az qalmış qisməti (əl-kitəb) ona yetişir və cənnətə daxil olmaq üçün hər şeyi etməyə başlayır. Bu yanaşma insanın inkişafının ilk altı həftəsinin vacibliyini təsdiqləyən elmi biliklərə uyğundur.

Hədisin sonunda qədərin insan üzərində hökmranlığından və qismətinə əsasən cənnətə yaxud cəhənnəmə layiq olacağından bəhs edilir. Çox güman ki, qismət (əl-kitəb) kəlməsi insanın həyatındakı hidayət və zəlalət, mükafat və cəza qaydalarını ifadə edir. Hidayət və zəlalət insanın özündən asılı olan zərurətdir. Allahın mesajını qəbul etmək və ya rədd etmək insanın öz iradəsindən asılıdır. Quranda "Bəqərə" surəsinin 26-cı ayəsində buyurulur: "Allah bununla bir çoxlarını azdırır, bəzilərini isə doğru yola yönəldir. Allah yalnız fəsiqləri azdırır". Taleyin insan üzərində hökmranlığı insan həyatının əbədi ilahi ədalət və şər qaydaları ilə idarə olunması deməkdir.

**Başqasının haqqını qəsb etmək qadağası**

Buxarinin qeydə aldığı digər hədis müsəlman qadınlara Allaha təvəkkül etməyi və ərə getmək üçün Ondan kömək istəməyi öyrədir. Başqasının olanı onun əlindən almaq olmaz, uyğun ər tapmaq üçün düzgün istiqamətdə səy göstərilməlidir. Peyğəmbər buyurur: "Heç bir qadın bacısının nikahının pozulmasını, ərinin boş olmasını və özü ilə evlənməsini istəməsin, ona yalnız özü üçün təyin edilmiş evlilik qismət olacaqdır"[40]. Bu hədis tarixən və bu gün qadınların özünə uyğun ər tapa bilməməsi subay və evli qadınlar arasında qısqanclıq problemi yaratdığına görə aktuallığını saxlamışdır. Cəmiyyətdə sərbəst münasibətlərin qurulması möhkəm olmayan əlaqələrin yaranmasına səbəb olur və gözləyən qadının yeni fürsət tapması son nəticədə boşanmaya gətirib çıxarır. Bu hədis qardaşından arvadını boşamağını istəyən və onunla evlənmək niyyətini ifadə edən kişiyə də şamil edilir. Bu səbəbdən hədis səhihdir.

**Allah hər şeyin yeganə sahibidir**

Buxarinin və digər mötəbər ravilərin nəql etdiyi bir hədisdə hər şeyin müəyyən olunmuş vaxtda baş verdiyi, "Allahın verdiyi və geri aldığının Onun özünə məxsus olduğu" deyilir[41]. Bu hədisdə Peyğəmbərin qızı ona oğlunun son nəfəsini verdiyi barədə xəbər göndərir və Peyğəmbərdən onları ziyarət etməsini xahiş edir. Can verən uşağı qucağına alan Peyğəmbərin gözləri yaşla dolur və deyir: "Bu, Allahın öz qullarının qəlbinə yerləşdirdiyi bir imtahandır. Allah mərhəmətli bəndələrinə rəhm edir". Qeyd olunan hədis aşağıdakı mənaları ifadə edir: ölüm mütləqdir; insanın həyatı Allaha məxsusdur; ölüm Allahın təyin etdiyi vaxtda baş verir; ölən şəxsin yaxınları səbirli olmalı və Allahdan xeyir ummalıdır; ölüm ayağında olanı ziyarət etmək gözəl adətdir; Allah insanı qəlbiyumşaq yaratmışdır; Allah mərhəmət edənlərlədir.

**Peyğəmbərin öngörmələri**

Qeyri-səhih hədislərdən birində Peyğəmbərin qiyamətə qədər gələcəkdə baş verəcək hadisələr barədə nitq söylədiyi bildirilir[42]. Hədisin ravi zənciri zəifdir və təhrif edilmişdir. Buxari tərəfindən qeydə alınmasına baxmayaraq, mötəbər hesab edilə bilməz[43]. Peyğəmbər belə bir nitq söyləsəydi, bu cür ətraflı məlumatı çatdırmaq üçün ona həftələr, bəlkə də aylar lazım olardı. Bu rəvayət şübhəsiz ki, mübaliğədir. Peyğəmbərin məlum tarixində belə bir çıxışa istinad yoxdur. Hədis mənbələrində Peyğəmbərin bu cür proqnozlar verməsi haqqında çox sayda uydurma məlumatlara rast gəlinir.

**Adəm və Musanın mübahisəsi**

Buxarinin qeyd etdiyi və narazılığa səbəb olmuş bir hədisdə Adəm və Musa arasında baş vermiş mübahisə əsnasında Musa Adəmə "bizim Cənnətdən qovulmağımıza sən səbəb oldun" demişdir[44]. Rəvayətdə bu mübahisə zamanı Musanın Adəmə adı ilə müraciət etdiyi bildirilir. Ancaq bir peyğəmbərə atasına adı ilə müraciət etmək yaraşmaz. Bundan əlavə, oğul atasını səhvinə görə qınamamalıdır. O, *ihsan* (mükəmməl rəftar) prinsipinə əməl etməlidir. Musanın sözləri sərtdir və mömin ataya qarşı saleh oğula yaraşmayan rəftardır. Həmçinin, Musa nə üçün Adəmi Allahın bağışladığı bir səhvə görə qınamışdır? Musaya vəhy gəldiyinə görə Adəmin cənnətdən qovulmasında şeytanın rolu barədə məlumata malik olmalı idi. Allaha görə bu günahın səbəbkarı Adəm deyil, şeytandır. Bununla belə, rəvayətə əsasən Musa Adəmi günahlandırmışdır. Bu, qəribə və inanılmazdır.

Allah ata-oğul münasibətinin əsaslarını bütün peyğəmbərlərinə bildirmişdir. Bundan əlavə, ihsan anlayışı artıq Musanın şəriətində mövcud idi və bu münasibətə də aid idi. Musanın Adəmlə mübahisəsinə haqq qazandırmaq məqsədilə İbrahim peyğəmbərin atası ilə mübahisəsi təsvir olunan "Məryəm" surəsinin 41-48-ci ayələrinə istinad edilə bilər. Lakin Musa Adəmi artıq bağışlanmış bir günaha görə qınadığı halda, İbra-

him bütpərəst atasını inancına görə qınamamış, bütpərəstliyə arzuolunmaz ibadətini tərk etməyə inandırmaq məqsədilə ona yalvarmışdı. Qınamaq və inandırmaq iki fərqli anlayışlardır. Yaşlıları qınamaq arzuolunmazdır, lakin onları səhvlərdən çəkinməyə inandırmaq təqdirəlayiq davranışdır.

**Allahın müstəsna hüquqları**

Buxarinin qeydə aldığı hədislərdən birində Peyğəmbərin namazdan sonra dedikləri qeyd olunmuşdur: "Allahdan başqa ilah, Onun şəriki yoxdur. İlahi! Sənin verdiyini heç kəs ala bilməz! Sənin əlimizdən aldığını heç kəs geri qaytara bilməz! Kiminsə Sənə qarşı cəhdləri ona xeyir verməz!"[45]. Bu hədisin Buxari tərəfindən təqdim olunan ravi zənciri etibarlıdır. Peyğəmbərin namazdan dərhal sonrakı qiraəti və zikrləri Allahın insana münasibətdə mövqeyinin həmişə xatırlanmalı olduğuna işarə edir. Digər dinlərdən fərqli olaraq, İslam Allahın sifətlərini açıq-aydın göstərir. Başqa kitablarda bəzən insanlar Allaha meydan oxuduğu halda, İslam müsəlmanlara Allaha qarşı çıxmamağı öyrədir. O, hər şeyə qadirdir, göylərdə və yerdə mövcud olan hər şey Ona məxsus və Onun hökmranlığı altındadır. Qeyd olunan hədisdə Allahın nemətləri verə bildiyi kimi, onlardan məhrum edə bilməsi də vurğulanır. Bu səbəbdən hədis səhih hesab olunur.

**Epidemiyanın səbəb olduğu faciəvi ölüm**

Hədisdə Peyğəmbərin həyat yoldaşı Aişə ondan vəba haqqında soruşduğu zaman Peyğəmbərin aşağıdakı cavabı verdiyi qeyd olunmuşdur: "Bu, Allahın istənilən bəndəsinə göndərə biləcəyi əzabdır. Lakin Allah indi onu möminlər üçün rəhmət mənbəyi etmişdir. Vəba xəstəliyinə düçar olmuş şəhərdə qalan, səbir edən və Allahın mükafatına ümid edərək oranı tərk etməyən kəs başına Allahın təyin etdiyindən başqa bir şey gəlməyəcəyini və vəbadan ölənin şəhid kimi savab qazanacağını bilir"[46]. Bu hədisin ravi zənciri mötəbərdir və mətni İslam prinsiplərinə uyğundur.

İslam öz tərəfdarlarına hər vəziyyətdə səbirli olmağı tövsiyə edir. Epidemiya yayılmış şəhərin xarici aləm ilə əlaqəsi kəsilir və karantin altında olduğundan heç kim daxil ola və ya oranı tərk edə bilməz. Ölümcül xəstəlik qorxusu ilə yaşayan insanları bəladan yalnız Allah xilas edə bilər. Müsəlmanlar ölümün onları mütləq yaxalayacağına inanır və buna görə də xəstəliyin yayıldığı şəhərdən qaçmağın ölümdən xilas olmağa zəmanət vermədiyini bilirlər. Bu Peyğəmbər hədisi insanlara Allaha təvəkkül etməyi tövsiyə edir, Allahın həyat və ölümün yeganə mənbəyi olduğunu xatırladır. O kəs ki, səbirlə gözləyərək və əziyyətinə görə Allahdan rəhmət umaraq vəbadan ölürsə, qiyamət günü mükafatını alacaqdır. Lakin bu hədis Buxarinin topluda seçdiyi mövzuya uyğun gəlmir və hətta böyük təfsirçilər də onun qeyd olunan fəsildə yer almasını əsaslandıra bilməmişlər.

**Allahın iradəsi**

Hədisdə Peyğəmbər buyurur: "Allaha and olsun ki, əgər Onun istəyi olmasaydı, biz nə doğru yola yönələr, nə namaz qılar, nə də oruc tuta bilərdik. Allahım! Bizə mənəvi rahatlıq ver, zülm edən bütpərəstlərin başladığı döyüşdə bizi gücləndir"[47]. Bu poetik sətirlər Quranın həqiqi ruhunu, eləcə də Peyğəmbərin narahatlığını və Allaha səmimi yalvarışını ifadə edir. Hədis bizə Allaha müraciət etməyi öyrədir. Allaha edilən dua təkcə insanın istəklərini ifadə etmir, həm də həyata praktik yanaşmanı formalaşdırır. İnsan doğru yolda möhkəm addımlamaq üçün əlindən gələni etməli və hidayətin onun özü tərəfindən qazanılmadığını, Allahın ona bəxş etdiyi hədiyyə və böyük imtiyaz olduğunu bilməlidir.

Allah Quranı nazil etməklə bəşəriyyətə hidayəti üçün ehtiyac duyduğu vasitəni bəxş etdi. O zaman olduğu kimi, hazırda da insanın vəzifəsi onu oxumaq, başa düşmək və əməllərində tətbiq etməkdir, çünki Allah bəşər övladına bunları həyata keçirmək üçün imkan, qabiliyyət və şücaət vermişdir.

## Müəllif

İsrar Xan Hindistanın Aliqarh Müsəlman Universitetində ilahiyyat üzrə fəlsəfə doktoru dərəcəsini almışdır. Hazırda Malayziya Beynəlxalq İslam Universitetinin "Quran və Sünnə" kafedrasının dosentidir. Onun əsas təhsil, tədris və tədqiqat sahəsi Quranşünaslıq və hədisşünaslıqdır. İsrar Xan İslam elmlərinə dair bir neçə kitabı ərəb dilindən urdu, ingilis və hind dillərinə tərcümə etmişdir. Onun ingilis dilində yazdığı "Quran elmləri: giriş" adlı kitab 2000-ci il, "Ləğv nəzəriyyəsi: tənqidi dəyərləndirmə" adlı kitab 2006-cı il, "Quranı anlama: təfəkkür" adlı kitab isə 2006-cı ildə nəşr olunmuşdur.

Malayziya Beynəlxalq İslam Universitetinin "Intellectual discourse" jurnalı və digər beynəlxalq akademik jurnalların redaksiya heyətinin üzvü olan İsrar Xan beynəlxalq faktorlu jurnallarda məqalələr dərc etdirmiş, bir çox beynəlxalq konfrans və seminarlarda məruzələrlə çıxış etmişdir.

# İstinadlar

[1] Quran, "Ali-İmran" surəsi, 132-ci ayə
[2] Quran, "Nisa" surəsi, 59-cu ayə
[3] Quran, "Ənfal" surəsi, 12-25-ci ayələr
[4] Quran, "Nisa" surəsi, 65-ci ayə
[5] Quran, "Ənfal" surəsi, 46-cı ayə
[6] Quran, "Muhəmməd" surəsi, 33-cü ayə
[7] İbn əl-Cəvzi, Əbd ər-Rəhman ibn Əli. Kitəb əl-məvduət, Beyrut, Dar əl-kutub əl-ilmiyyə, 1995, I cild, s.325
[8] Yenə orada, II cild, s.290
[9] Yenə orada, s.15
[10] Yenə orada, II cild, s.22
[11] Müslim İbn əl-Həccac əl-Quşeyri. Səhih, Beyrut, Dar ihyə ət-turas əl-ərəbi, 2000, Müqəddimə, rəvayət 1-4, s.51
[12] Yenə orada
[13] Fəllatə Ömər ibn Osman. Əl-vəd fi əl-hədis, Dəməşq, Məktəbə əl-Qəzali, 1981, I cild, s.180
[14] Yenə orada
[15] Kamil Muhəmməd, Muhəmməd Uveydə. Ələm əl-fuqəhə və əl-muhəddisin: əl-İmam əl-Buxari, Beyrut: Dar əl-kutub əl-ilmiyyə, 1992, s.9
[16] Kamil Muhəmməd. Ələm əl-fuqəhə və əl-muhəddisin: Müslim ibn Həccac, Beyrut: Dar əl-kutub əl-ilmiyyə, 1995, s.14
[17] İbn Kəsir Əbu əl-Fida İsmail. Əl-bais əl-hədis, IV nəşr, red. Əhməd Məhəmməd Şakir, Beyrut, Dar əl-kutub əl-ilmiyyə, 1994, s.20
[18] Mahmud Tahan. Təysir mustələh əl-hədis, Küveyt, Məktəbə dar ət-turas, 1984, s.146
[19] Yenə orada
[20] Əs-Suyuti Cəlal əd-Din. Tədrib ər-ravii, Beyrut, Dar əl-kutub əl-ilmiyyə, 1989, I cild, s.252. Əl-Xair Əbadi, Muhəmməd Əbül Leys. Təx-

ric əl-hədis: Nəşatuhu və mənhəcuhu, Kuala Lumpur, Dar əş-Şakir, 1999, s.268-274

[21] İbn Kəsir Əbu əl-Fida İsmail. Əl-bəis əl-hədis. IV nəşr, red. Əhməd Məhəmməd Şakir, Beyrut, Dar əl-kutub əl-ilmiyyə, 1994, s.19

[22] Yenə orada, s.42

[23] Əl-BuxariMuhəmməd ibn İsmail. Səhih, Beyrut, Dar ihyə ət-turas əl-ərəbi, hicri 1400, IV cild, Kitəb əl-itişəm bi əs-Sunnə, XX bab

[24] Müslim, VIII cild, "Kitəb fədail əs-Səhabə", hədis № 6322-6326; əl-Buxari, IV cild, "Kitəb əd-dəavat", hədis № 6344

[25] Quran, "Bəqərə" surəsi, 170-ci ayə

[26] Quran, "" surəsi, 30-38-ci ayələr, "Ənbiya" surəsi, 10-cu ayə

[27] Müslim, VIII cild, "Kitəb əl-fədail", hədis № 6055

[28] Yenə orada, hədis № 6049-6052

[29] Ən-Nəvəvi Muhy əd-Din. Əl-minhəc: Şərh səhih Muslim, Beyrut, Dar əl-mərifə, 1997, VIII cild, s.102. İbn Səd. Ət-Təbəqat əl-kubra, Beyrut, Dar ihyə ət-turas əl-ərəbi, 1996, II cild, II hissə, s.404

[30] Müslim, VIII cild, "Kitəb əl-fədail", hədis № 6053

[31] Yenə orada, hədis № 6050

[32] İbn Əbd əl-Bar, Yusuf ibn Əbd Allah. Əl-İstiəb fi mərifə əl-əşab, Beyrut, Dar əl-kutub əl-ilmiyyə, 1995, I cild, s.143, 147

[33] Quran, "Furqan" surəsi, 63-74-cü ayələr

[34] İbn Həcər. Hədi əs-sari, Riyad, Dar əs-Səlam, nəşr tarixi qeyd edilməyib, s.12-14

[35] Həmzə Muhəmməd Qasim. Mənər əl-qari, Dəməşq, Məktəbə dar əl-bəyən, 1990, V hissə, s.307

[36] Yenə orada

[37] İbn Həcər. Fəth əl-Bəri, Riyad, Dar əs-Səlam, 2000, XI cild, s.582

[38] Əl-Buxari. Səhih əl-Buxari, IV cild, LV fəsil, hədis № 549

[39] Müslim ibn əl-Həcəc. Səhih, Beyrut, ən-Nəvəvinin şərhləri ilə, Dar əl-mərifə, 1997, VIII nəşr, "Kitəb əl-qədər", s.409, hədis № 6668

[40] Əl-Buxari. Səhih, IV cild, "Kitəb əl-qədər", s.209, hədis № 6601

[41] Əl-Buxari. Səhih, I cild, "Kitəb əl-cənəiz", s.396, hədis № 1284; IV cild, "Kitəb əl-mərdə", s.26, hədis № 5655; IV cild, "Kitəb əl-əymən və ən-nudur", s.220, hədis № 6655; IV cild, "Kitəb ət-Tovhid", s.379, hədis № 7377 və s.394, hədis № 7448

[42] Əl-Buxari. Səhih, "Kitəb əl-qədər", s.210, hədis № 6604

[43] İbn Həcər. Təhzib ət-Təzhib, V cild, s.561-562

[44] Əl-Buxari. Səhih, IV cild, "Kitəb əl-qədər", s.212, hədis № 6614

[45] Yenə orada, s.212, hədis № 6615

[46] Yenə orada, s.213, hədis № 6619

[47] İbn Həcər. Fəth əl-Bəri, XI cild, s.640. IV cild, "Kitəb əl-qədər", s.213, hədis № 6620

**Beynəlxalq İslam Fikri İnstitutunun icmal kitablar seriyası** oxucularda əsərlərin orijinallarının məzmunu haqqında təsəvvür yaratmaq məqsədilə insititutun icmal formasında yazılmış əsas nəşrlərinin toplusudur. Qısa, oxunaqlı və vaxta qənaət edilməsi baxımından faydalı olan bu icmallar əsas mətnin təfərrüatlı və dəqiq yazılmış ixtisarıdır. İcmalların oxucularda həmin əsərlərə maraq oyadacağına ümid edirik.

İsrar Əhməd Xanın "Hədislərin mötəbərliyi: meyarların yenidən müəyyənləşdirilməsi" adlı əsəri tam formatda 2010-cu ildə nəşr edilmişdir. Müəllif əsərdə hədislərin səhihliyi kimi həssas mövzuya toxunmuş, əsas hədis toplularının tərtibçiləri tərəfindən qəbul edilmiş meyarlara diqqət yetirmişdir. Onun fikrincə, digər hədislərin tənqidinə yönəlmiş, Peyğəmbərə aid olmayan rəvayətləri və Quran təliminə zidd olan məsələləri əks etdirən bəzi hədislərin də həmin toplulara daxil edilməsinin səbəbi diqqətin hədislərin məzmununa deyil, onları bir-birinə ötürən ravilər zəncirinin davamlılığı və dəqiqliyinə yetirilməsi olmuşdur. Müəllif Peyğəmbərin vəfatından sonra yayılan hədislərin bir qismində məqsədyönlü saxtakarlığın mövcudluğu faktına məhəl qoyulmamasını ağılsızlıq hesab edir. Onun fikrincə, bu saxtakarlıqlar imanın əsaslarını zəifləətmək məqsədi daşıyır və buna nail olmaq üçün məzhəb, siyasi, iqtisadi və hətta teoloji vasitələrdən istifadə edilirdi. Yeni yaranan dinə qarşı rəqabətdən irəli gələn siyasi və dini ziddiyyətlər hədislərdən istifadə vasitəsilə İslam barəsində dezinformasiyanın yayılmasına səbəb olurdu.

Hədislərin düzgün şərh edilməməsi və onlardan sui-istifadə edilməsi yenilik olmasa da, bu gün saxta hədislərdən istifadə mürəkkəb və dəyişkən dünyada ekstremist davranışları qanuniləşdirmək, açıq-aşkar təcavüzə, xüsusilə qadınlara qarşı zorakılığa haqq qazandırmaq və zorakı davranışlara çağıran fitvalar vermək üçün asan və təhlükəli nəticələr doğuran üsuldur. Bundan əlavə, müasir dövrdə islam əleyhinə əhval-ruhiyyənin yayıldığını nəzərə alsaq, islam zorakılığı və cahilliyi ideyasına təkan vermək məqsədilə ictimailəşdirilmiş və amansızcasına istifadə edilən uydurma hədislər məsələsinə toxunmaq vacibdir. Hazırda islam elmlərinə dərindən bələd olan müsəlman alimlərinin əsas vəzifəsi yanlış təfsirlərə yol açan, Qurana və Peyğəmbərə xəyanət edərək nadanlıq yolunu davam etdirən uydurma hədislərin kökünü kəsməkdir.

Beynəlxalq İslam
Fikri İnstitutu

9 789952 844559